

## Neft Daşları - 75

*Azərbaycan dünyada ilk dəfə olaraq 1949-cu il noyabrın 7-də açıq dənizdə neft hasil edən ölkə kimi adını tarixə yazdırıb. Həmin gün dünyanın səkkizinci möcüzəsi adlandırılan əfsanəvi Neft Daşlarında qazılan ilk quyudan neft fontan vurub. Bununla da 942 metr dərinlikdən neftin fontan vurması ilə ölkəmizdə neft sənayesinin yeni inkişaf mərhələsi başlayıb.*

*1950-ci ilin dekabrında isə neftçi Qurban kimi tanınan Qurban Abbasov və Mixail Kaveroçkinin qazdığı quyuların neft verməsi Neft Daşlarının şöhrətini durmadan artırıb. Dəniz neftçilərinin peşəkarlığı və cəsarəti nəticəsində Xəzərdə istənilən hava şəraitində kəşfiyyat, qazma və neftçıxarma işləri aparılırdı. Güclü dalğalarla dənizin coşması da neftçilərin iradəsinə mənfi təsir edə bilmədi və onlar sözün əsl mənasında, qəhramanlıq mücəssəməsi göstərdilər.*

# Açıq dənizdə möcüzələr adası, əfsanəvi şəhər



### Dünyanın dəniz və okean akvatoriyalarında canlanma

1951-ci ilin fevralında Neft Daşlarından neftlə dolu ilk tanker yola salınıb. Həmin il estakada və meydançaların tikilməsinə, hidrotexniki qurğuların, kommunikasiya xətlərinin, istehsal və yaşayış obyektlərinin inşasına başlanılıb.

Neft Daşlarının kəşfi dünyanın bütün dəniz və okean akvatoriyalarında böyük bir canlanma ilə tarixə düşdü. Neftlə zəngin olan ölkələrdə axtarış-kəşfiyyat işlərinə başlanıldı. Bununla da "qara qızıl"ın məskəni hesab olunan respublikamız metallurgiya sənayesinin tərəqqisinə də hərtərəfli zəmin yaratdı. Dünyada Neft Daşları ilə yanaşı şöhrətini və rolunu artıran ölkəmizin qısa zaman kəsiyində şöhrəti o qədər geniş yayıldığından SSRİ-yə səfər edən dövlət başçılarının maraq dairəsinə çevrildiyindən xarici qonaqların mütəmadi olaraq səfər proqramlarına daxil edilməyə başlandı.

Bununla da Xəzər dənizində Bakıdan 110 km şimal-şərqdə yerləşən Neft Daşları dünya nefti tarixində xüsusi əhəmiyyəti ilə seçildi. Bu ərazinin tapılması Azərbaycan geoloqu Ağaqurban Əliyevin adı ilə bağlıdır. O, 1945-ci ildən başlayaraq 3 il onun rəhbərliyi ilə ekspedisiya gərgin iş aparıb. 1948-ci ilin noyabr ayında Sabit Orucov, Yusif Səfərov və V.M.Roşşin bura gələrək qazılacaq ilk quyunun yerini müəyyənləşdiriblər. 1949-cu ilin aprel ayında V.M.Roşşinin rəhbərliyi ilə həmin yerdə ilk buruq quraşdırılıb, iyun ayında ilk kəşfiyyat quyusunun qazılmasına başlanıb. İstismar müddəti keçmiş "Çvanov" gəmisinin qrunta batırılması yolu ilə yaradılmış süni buxtadan 1000 metrə yaxın dərinliyə qazılmış ilk quyu həmin il noyabrın 7-də gündəlik 100 ton debitlə neft fontanı vurub. Bununla da dünya neftı tarixində yeni eranın - açıq dənizdə neft hasilatının əsası qoyulub. Bura əvvəllər "Qara daşlar" adlandırılıb. Bu isə təbii qrifonlar olduğuna görə dənizin səthinə çıxmış daşların qara rəngə boyanması ilə bağlı idi. Neft hasilatına başlanması ilə "Qara daşlar" Neft Daşlarına çevrildi.





### "Ginnesin Rekordlar Kitabı"na düşən ilk dəniz platforması

Dünyada ilk dəfə olaraq açıq dənizdə quraşdırılan dəniz platforması kimi Neft Daşları "Ginnesin Rekordlar Kitabı"na daxil olub. Neft Daşlarının kəşf edilməsi və istismarı dünya və Azərbaycan neftçıxarma tarixində dönüş nöqtəsi və yeni inkişaf mərhələsi olmaqla açıq dənizdə neft hasilatının təməlini qoydu.

Ötən dövr ərzində son dərəcə böyük istehsal-yaşayış kompleksi olan Neft Daşlarında 2 min civarında quyu qazıldı, 200 kilometrə yaxın estakada, 333 istehsalat meydançası tikildi, 100 kilometrlərlə neft, qaz, su kəmərləri çəkildi. Neft Daşları yatağından 176 mln. ton neft və 13,6 mlrd. kubmetrə yaxın həcmdə təbii qaz hasil olundu. Statistikalara əsasən 1967-ci ildə burada 7,6 mln. ton neft hasil edilmişdi ki, bu da həmin ildə Azərbaycanın ümumi neft hasilatının 1/3 hissəsinə bərabər idi.

Açıq dənizdə süni şəhərcik Neft Daşları dənizdə yaradılan süni şəhərcik hesab olunur. Çünki burada bir-birindən yaraşıqlı yaşayış binaları, futbol meydançası, çay evi, park var.



Buna görə də Neft Daşları xalq arasında "7 gəmi adası" kimi də məşhurlaşmışdı. Buraya gətirilən gəmilərin arasında dünyada ilk tanker olan "Nobel qardaşları" şirkətinin istehsal etdiyi "Zoroaster" (Zərdüşt) gəmisi də olub. Hazırda həmin gəmilərdən yalnız "Naxçıvan" gəmisinin qalıqları var, qalanları isə çürüyüb. 1960-cı illərdən sonra gəmilərdən demək olar ki, istifadə olunmayıb.

Buranı digər dəniz platformalarından fərqləndirən daha bir xüsusiyyəti müxtəlif bitkilərin, o cümlədən, meyvə ağaclarının yetişdirilməsidir. Ümumilikdə Neft Daşlarında mindən çox ağac, 10 mindən çox kol əkilib, 5000 kvadrat sahədə qazon salınıb.

### Dəniz neftçilərinin sığınacaq yeri - "7 gəmi adası"

Quyunun fontan vurmasından sonra burada insanların işləməsi, yaşayışı üçün şəraitə ehtiyac var idi. Ağaqurban Əliyev, Sabit Orucov və Yusif Səfərovun təklifi ilə Bakı Gəmi Təmiri Zavodunda istifadədən silinmiş iri tonnajlı gəmilər əraziyə gətirilərək batırılıb. İlk gətirilən gəmi "Çvanov" gəmisi olub. Sonra 6 gəmi gətirilərək "Qara daşları"n dayaz yerlərində batırılıb və onların üstündə lazımi şərait yaradılıb.

### Neft Daşlarından ilk tanker

İkinci quyunun qazılmasına 1949-cu il dekabrın 19-da başlanıldı və 1950-ci ilin birinci yarısında bu quyudan da neft fontan vurdu və beləliklə də iki quyu Neft Daşları rayonunda nəhəng neft ehtiyatlarının mövcudluğunu sübuta yetirdi. 1949-cu il dekabrın 1-də dənizdə qazma, neftçıxarma və tikinti ilə məşğul olan "Azərdənizneft" İstehsalat Birliyi yaradıldı. Həmin qərarla "Dənizneftlayihə" Dövlət Elmi-Tədqiqat Layihə İnstitutu da təsis olundu. Eyni zamanda, SSRİ Neft Sənayesi Nazirliyinin tərkibində "Başdənizneft" Ümumittifaq İstehsalat Birliyi yaradıldı, neft sənayesinin görkəmli təşkilatçısı Sabit Orucov Birliyin ilk rəisi və eyni zamanda, SSRİ Neft sənayesi nazirinin müavini təyin edildi. Bununla da Neft Daşlarında kəşfiyyat-qazma və tikinti işləri geniş vüsət aldı. 1950-ci ilin dekabrında neftçi Qurbanın və Mixail Kaveroçkinin briqadaları tərəfindən qazılan quyular neft verdi. 1951-ci il fevralın 18-də neftlə dolu ilk tanker Neft Daşlarından yola salındı.

### Neft Daşlarının inkişafında "qızıl dövr"

1970-ci illəri dənizdə neftçıxarmanın və ilk növbədə Neft Daşlarının inkişafında "qızıl dövr" adlandırırdılar. Təkcə bir faktı xatırlamaq kifayətdir ki, ulu öndər Heydər Əliyev respublikamıza rəhbərlik etdiyi birinci dövrdə - 1970, 1972 və1975-ci illərdə üç dəfə Neft Daşlarında olmuşdu. Düzdür, 1969-cu ildən əvvəllər də ümummilli lider Heydər Əliyev dəfələrlə Neft Daşlarına səfər edərək dəniz neftçilərinin fədakar əməyi ilə yaxından tanış olurdu.

Neft Daşlarında ulu öndərimiz Heydər Əliyevin adını daşıyan, sahəsi 2,5 hektar olan park, muzey və Heydər Əliyevin heykəli, Qarabağ müharibəsində şəhid olmuş əməkçilərin xatirəsinə ucaldılmış abidə, çay evi mövcuddur.

Parkın ərazisi daş döşəmələrlə tikilib, müasir və yeni oturacaqlar quraşdırılıb və müasir futbol, voleybol stadionu da inşa edilib.

Ulu öndər Heydər Əliyev Azərbaycan KP MK-nın birinci katibi seçildikdən sonra ilk səfəri də Neft Daşlarına oldu. 1969-cu il iyulun 14-də Azərbaycan KP MK-nın birinci katibi seçilən Heydər Əliyev plenumda iştirak edən Sov.İKP MK katibi İ.V.Kapitonov ilə birgə Neft Daşlarına səfər etdi. 1970-ci ildə Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri N.V.Podqornı, SSRİ Dövlət Plan Kömitəsinin sədri N.K.Baybakov və digər nazir, komitə sədrlərinin daxil olduğu nümayəndə heyəti ilə birgə Neft Daşlarına gəldi, dəniz neft şəhərinin inkişafı ilə bağlı dəyərli məsləhətlər verdi. Beləlikə, bu səfər neftçilərin gərgin əməyinin yüksək bəhrə verməsinə gətirib çıxardı.

1969-cu il avqust plenumunda Heydər Əliyevin təklifi ilə Azərbaycan KP MK-nın neft sənayesinin inkişafını sürətləndirmək üçün qəbul etdiyi qərar respublikada "qara qızıl" hasilatının yüksəlməsinə böyük təsir etdi.

Bir sözlə, ümummilli lider Heydər Əliyevin ölkəmizə rəhbərliyinin birinci dövrü dəniz neftinin hasilatı tarixində yeni mərhələ açdı və bu gün də dövlət başçımızın rəhbərliyi sayəsində uğurla həyata keçirilən Neft Daşlarına dövlətin diqqət və qayğısının təməli qoyuldu.

### İstehsalat "şəhəri" inkişafının yeni mərhələsini yaşayır

Neft Daşlarının 70 illiyi münasibətilə neftçiləri təbrik edən Prezident İlham Əliyev bildirmişdir ki, tarixdə ilk dəfə olaraq XX əsrin ortalarında dənizdə də neft məhz Azərbaycan neftçiləri tərəfindən çıxarıldı və bu da tarixi hadisədir. Azərbaycanda ilk dəfə dünya miqyasında dənizdən neft XX əsrin ortalarında Neft Daşlarında çıxarıldı. Bu, o deməkdir ki, Azərbaycanın çox böyük və zəngin ənənələri var.

1949-cu il noyabrın 7-də Bakıda, Neft Daşlarında ilk neft fontanının vurması və dünya təcrübəsində birinci dəfə açıq dənizdə neft hasilatına başlanması neft sənayesinin inkişafında mühüm hadisə idi. Məhz Azərbaycan neftçilərinin fədakar əməyi sayəsində dənizdə neftçıxarmanın mümkünlüyü ideyası gerçəkləşdi və dəniz akvatoriyalarının mənimsənilməsi epoxasının başlanğıcı qoyuldu. Bu, eyni zamanda, Azərbaycanın neft mütəxəssislərini ən qabaqcıl mövqelərə çıxardı. Nadir Neft Daşları yatağının kəşfi bir çox dənizlərdə axtarış-kəşfiyyat işlərinə güclü təkan verdi. Hazırda dünyada karbohidrogen hasilatının əsas hissəsi dəniz akvatoriyalarının payına düşür və dənizlərin dərinlikləri fəth olunmaqdadır. Fəxr edirik ki, həmin proseslərin mənbəyi bizim əfsanəvi Neft Daşlarıdır.

Dövlət başçısı qeyd etdi ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin müdrik rəhbərliyi altında 1970-ci illərdə neft sənayesinin müasirləşdirilməsi istiqamətində görülən işlər qısa müddətdə yeni yataqların kəşfi və istismarına yol açmışdır. Ulu öndər Neft Daşlarını respublikamızın alim və mütəxəssislərinin mühəndis fikrinin, elmi və texniki mədəniyyətinin milli təcəssümü kimi qiymətləndirmiş, müstəqil dövlətimizin uğurlu neft strategiyasının təməllərinin məhz Neft Daşlarında qoyulduğunu xüsusi vurğulamışdır. Azərbaycanın təşəbbüsü və liderliyi ilə bu gün də regional və qlobal miqyaslı enerji layihələri müvəffəqiyyətlə həyata keçirilir.

Ötən müddət ərzində böyük məsafə qət edərək dəniz şəraitində müasir infrastrukturlu istehsalat "şəhəri"nə çevrilən Neft Daşları indi öz inkişafının yeni mərhələsini yaşayır. Neft Daşları yatağının zəngin ehtiyatları bundan sonra da uzun illər ölkəmizin iqtisadi potensialının gücləndirilməsinə və xalqımızın həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına xidmət edəcək.

**Mikayıl NƏRİMANOĞLU,**
**"Respublika".**